

AİDA ADIGÖZƏL

# AVQUST POEZİYA XURCUNU

Ağzı günə qalan köhnə yurd yeri,
mənəm qıçı sınmış, qapını döyən...
Gəlmişəm baş çəkəm ocaq yerinə,
ruhu səfil qalmış, yiyəsi ölən...

Gəl bir az dərdləşək, bir az gap edək,
keçmişdən danışaq, xəyal, gop edək,
götürək şor-fətir tez əl-qap edək,
naxır dönən vaxtdır, sürüsü gələn...

Əldə kağız-yuxa, qaya qaşında,
çığırtma qoxusu damı-daşında,
anamdı hərlənir ocaq başında,
qazanı  dağılıb, çömçəsi düşən...

...Razıyam, qoy dönüm bir boz bayquşa,
qonum, keşik çəkim qayaya, daşa,
çevrilim atılmış sınıq baş daşa,
əsir Qarabağda ...mirasa dönən!!!

***14.08.2019***

***

İlahi, mən neçə paxıl adamam,
səni bu dünyada qoyub getməyə
nə əlim, nə də ki, ürəyim gəlir.
Səni başqasına, yadın birinə
verən əllərimi kəsməyim gəlir.

Bütün günahların hamsı tanrıda,
məni bir azacıq şeytan yaratdı...
bir azacaq şirin, bir az da qısqanc,
bir az da dəlisov insan yaratdı.

Səni yad qollarda baxıb görəndə
Bir az da qatiləm, bir az manyakam,
qınama əcdaddan nələrsə qalıb,
deyəsən bir az da  amazonkayam.

İlahi, mən neçə paxıl adamam...
səni bu dünyada qoyub getməyə
nə ayağım, nə də heç əlim gəlir.
Səndən ayrılmağa nə qəfil əcəl,
nə də ki, amansız bir ölüm gəlir.

*Ilahi, mən neçə paxıl adamam...*

***04.08.2019***

***

Göydən lopa-lopa sevgi ələnsin,
ələnsin ocağı, binəsi üstə.
Ilahi, bu qızı sevgidən öldür,
öldür bir kişinin sinəsi üstə.

Elə xoşbəxt elə, elə sevgi ver,
günəş parıldasın gözləri üstə.
Meyin sərxoşluğu qoy yalan olsun,
sərilib, məst olsun dizləri üstə.

Düşüb cabalasın, çarə axtarsın,
eşqin mərəzinin halları üstə.
Elə yaralansın, elə vurulsun,
ölsün bir şairin qolları üstə.

Ilahi, bu qızı şeirlə öldür,
basdır şeirlərdə, sözlərin üstə.

***2.08.2019***

***

Bağışla məni, dağlar,
küsdüm buz bulağına,
qırıldım cınqıl kimi,
pozulmuş növrağına!

Dağlar o dağlar idi...
şehli meşəsi başqa,
yamacında quzular,
hələ qulunu qaşqa.

Bağışla məni, dağlar...
kəhrizdə izim qaldı,
covustanda sacdakı,
yuxada gözüm qaldı.

Dağlar o dağlar idi,
zoğallı, qarağatlı,
bulaqdan qız qaçırıb
gedən o kəhər atlı.

Bağışla məni, dağlar,
sürüyə qurd soxuldu,
dağlar o dağlar idi,
ilğım kimi yox oldu...

***15.08.2019***

***

Mən daha sevmirəm bu boz şəhəri,
Hər yanı xatirə dolu məzarlıq!
İlahi, acmasın bir də səhəri...
Qalsın bəxtim kimi üzü qaranlıq!

Məni qucağında gizlə, gecələr!
Ömrün dərd qoşunu arxamca gəlir.
Bir ömür gözlədim bitər,düzələr...
Oysa üstə qoydu daha neçələr!

Mən daha sevmirəm bu boz şəhəri,
Gələndə tək idim, gedəndə də tək...
Təkcə mənmi yazdım bu səhv qədəri?
Mən roman yazırdım, bitdim cümlətək...

Mən səni sevmirəm daha gecələr,
Özümə sarılıb yol gözləyəcəm...
Qabaqdan bilmirəm gəlir necələr,
Dizimə söykənib gün-gün bitəcəm...

Mən daha sevmirəm bu boz şəhəri...
Mən daha sevmirəm səni gecələr…

***

Bir gün son döyüşdə
bir əsgərin son gülləsinin boş gilizi,
səngərdə yazda acan çöl cicəklərinə güldan olar...
Müharibəmi?! Müharibə! Bitməyən...
Bir gecə bir evdə bir uzunsac haray salar...
Bir şairin son şeiri miz üstündə yarım qalar...
Ölmüşmü?! Ölmüş! Qoruya bilmədik...
Bəzən vitirnlərdə baxmadığımız
boz kəndirlər ağaclara aşiq olar...
bir gənci sevmək üçün boğazından asılar!
Nakammı?! Nakam! Carəsizliyin qurbanı...
Bəzən analar qatil olar,
Doğulmayan körpəsinə hökm kəsər,
adı eldə zalım olar...
Carəsizmi?! Carəsiz! Vicdansızlıq...

***5.08.2019***

***

Bu gecə son gecəmiz...
səni sevməyimin son gecəsi!
Ağarmağa başlayan dan yerində
son kəs çıxarıb baxıram
keyimiş, daşlaşmış ürəyimə
...basdırmağa əlim gəlmir nədənsə.
Bilmirəm,
hər tərəfindən şeir tökülən
şəklinə baxdıqca
dodağım tək bu sözü pıcıldayır...
məni gözəl xatırlarsan sadəcə!
Gözəl xatırlarsan bu dəli qızı...
Günəşə qoşulub səhəri açacam səninçün,
gecəyə qoşulub
ulduzlarla bəzəyəcəm göy üzünü,
sənə ılham versin deyə.
Sakitcə
yanağımdan aşağı süzülən yaşlarımı
ovcuma toplayıb ondan səninçün
işıq kürəcikləri düzəldəcəm
...ruhunu işıqlandırsın deyə.
Bəlkə sabahların mənsiz daha gözəl,
gecələrin daha nurlu olacaq beləcə...
Bu gecə səni sevməyimin son gecəsi...
məni gözəl xatırlarsan,
sadəcə, gözəl xatırlarsan!

***12.08.2019***